## Nağdsız ödənişlərə keçid

Ölkədə nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi məqsədi ilə «Nağdsız ödənişlərin stimullaşdırılması və POS-terminallardan istifadə barədə əhalinin məlumatlandırılması və maarifləndirilməsinə dair Tədbirlər Planı»na uyğun olaraq, Vergilər Nazirliyi tərəfindən müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilir. Nağdsız ödənişlərin üstünlüklərini, POS-terminallar və onlardan istifadə qaydalarını əks etdirən buklet hazırlanaraq 30.000 tirajla nəşr etdirilmiş, vergi ödəyicilərinə təqdim edilmək üçün vergi orqanlarına paylanılmışdır. 3300 vergi ödəyicisini və onların nümayəndələrini əhatə etmiş 94 görüş, treninq və seminar-məşğələ nağdsız ödənişlərin əhəmiyyətinə həsr olunmuşdur. Bu istiqamətdə atılan maraqlı addımlardan biri də «Bakıelektrikşəbəkə» tərəfindən əhaliyə təqdim olunan xəbərdarlıq bildirişlərinin arxasında nağdsız ödənişləri təbliğ edən reklam mətnlərinin yerləşdirilməsidir.

Bundan başqa, nağdsız ödənişləri stimullaşdıran reklam çarxı hazırlanaraq televiziya kanallarında və internetdə yayımlanır. POS-terminaldan istifadə olunmasını təşviq edən videotəlimat isə nazirliyin rəsmi internet səhifəsində və «Youtube» video hostinq serverində yerləşdirilmişdir. Respublika ərazisində nağdsız ödənişlərin üstünlüklərini təbliğ edən altı reklam şiti quraşdırılmış, Vergilər Nazirliyinin «195» Telefon-məlumat xidməti vasitəsilə POS-terminallardan, plastik kartlardan və digər müasir elektron ödəniş xidmətlərindən istifadə haqqında vergi ödəyicilərinin mobil nömrələrinə 13310 SMS göndərilmişdir.

Bu günlərdə Vergilər Nazirliyinin daha bir maarifləndirmə aksiyası başa çatmışdır. Aksiya çərçivəsində 10 gün ərzində paytaxtın mərkəzi küçələrində əhali arasında nağdsız ödənişlərin üstünlükləri barədə məlumatlandırma işləri aparılmışdır. Bunun üçün plastik kartlar çap edilərək şəhərin mərkəzi yerlərində insanlara paylanmış, kartların üzərində nağd puldan istifadə edən zaman pul itkisi ilə üzləşmə hallarının qaçılmaz olduğu barədə xəbərdarlıq vətəndaşların diqqətinə çatdırılmışdır. Qeyd edilmişdir ki, kartın itməsi və oğurlanması zamanı ondakı hesabı dondurmaq mümkün olur və nağdsız ödəmə zamanı vətəndaşlar heç nə itirmirlər. Aksiya vətəndaşlar tərəfindən maraqla qarşılanmışdır.

AYTƏN